DOI: https://doi.org/10.36719/2707-9317/116/47-54

# Evaluations related to the competitiveness of the national education system in the Republic of Azerbaijan

**Jala Mirzabekova**
Senior research fellow, Institute of Economics of ANAS. Azerbaijan.
E-mail: jale.2003@mail.ru
https://orcid.org/0000-0003-0584-000X

**Abstract:** In the article have been considered the factors determining modern changes in the education system, reasons that necessitate new quality changes and trends that raise the issue of improving the quality of education systems. The article also includes the experiences of the leading states in the field of education and the progress in the rating tables on the competitiveness indicators of the national education system in the Republic of Azerbaijan was reviewed.

**Key words**: national education system, higher education, competitiveness, education index, rating

# Azərbaycan Respublikasında milli təhsil sisiteminin rəqabətqabiliyyətliliyi ilə əlaqədar dəyərləndirmələr

**Jalə Mirzəbəyova**
Böyük elmi işçi, AMEA İqtisadiyyat İnstitutu, Azərbaycan
E-mail: jale.2003@mail.ru
https: //orcid.org/0000-0003-3317-1458

**Xülasə:** Məqalədə təhsil sistemində baş verən müasir dəyişiklikləri şərtləndirən amillər, yeniliyi zəruri edən səbəblər, Azərbaycan Respublikasında təhsilin keyfiyyətinin yüksəldilməsi məsələsini gündəmə gətirən təmayüllər nəzərdən keçirilmişdir. Araşdırmalarda təhsil indeksi üzrə lider dövlətlərin sözügedən sahədə təcrübələri, Azərbaycan Respublikasında milli təhsil sisteminin rəqabətqabiliyyətlilik göstəriciləri üzrə reytinq cədvəllərindəki irəliləyişlər nəzərdən keçirilmiş, müvafiq təkliflər irəli sürülmüşdür.

**Açar sözlər:** milli təhsil sistemi, ali təhsil, rəqabətqabiliyyətlilik, təhsil indeksi, reytinq

## Giriş / Introduction

Müasir dünya rəqabət münasibətlərinin bərqərar olduğu dünya kimi xarakterizə edilə bilər. Rəqabət eyni zamanda rəqabətədavamlılıq anlayışını ön plana çıxarır. İndiki dövrdə qloballaşma prosesi elm və təhsil sahəsində fəaliyyətin beynəlmilləşməsi ilə də diqqəti cəlb edir. Təhsil sisteminin bütün institusional strukturları birləşdirən özünə məxsus model kimi əsas məqsədi əhaliyə təhsil xidmətinin göstərilməsidir. Təhsil sisteminin strukturuna məktəbəqədər təhsil müəssisələri, məktəblər, kolleclər, universitetlər və s. daxildir.

Qeyd etmək lazımdır ki, müasir dövrdə təhsil sistemi dəyişikliklərə məruz qalmışdır. Həmin dəyişikliklər aşağıdakı amillərlə əlaqədardır:

- ✓ informasiya məkanının əlçatanlığının genişlənməsi;
- ✓ insanın bütün fəaliyyət sahələrində əhəmiyyətli tərəqqiyə nail olması;
- ✓ ölkə iqtisadiyyatının inkişaf etməsi, ixtisaslı kadrlara tələbatın artması;

Bunlar isə eyni zamanda təhsil sferası qarşısında yeni keyfiyyət dəyişikliklərini zəruri edən bir sıra səbəbləri meydana çıxarır. Həmin səbəblər qismində aşağıdakıları göstərmək olar:

- ➢ cəmiyyətin yüksək templərlə inkişaf etməsi;
- ➢ qloballaşma təmayülü və kommunikasiya formatının dəyişilməsi;
- ➢ rəqəmsal iqtisadiyyatın cəmiyyətin bütün sferalarına təsiri;
- ➢ cəmiyyətin demokratikləşdirilməsi, siyasi azadlıq, əhalinin sosial fəallığının artması;
- ➢ rəqabətin artması, qeyri peşəkar fəaliyyət sahələrinin azalması;
- ➢ məşğulluğun strukturu və təmayüllərinin dəyişilməsi;
- ➢ insan kapitalının rolunun artması;

Məhz bu təmayüllər Azərbaycan Respublikasında da təhsilin keyfiyyətinin yüksəldilməsi məsələsini gündəmə gətirmişdir.

3 Yuxarıda deyilənlərlə yanaşı müasir dövrdə təhsil sisteminin inkişaf etməsində müəyyən təmayüllərə də diqqət yetirilməsi məqsədəuyğun olardı. Həmin təmayüllər qismində aşağıdakılar qeyd edilə bilər: 1) humanistləşmə, 2) milliləşmə, şəffaflıq (açıqlıq), 3) təhsil və tərbiyəyə düzgün yanaşmanın seçilməsi imkanlarının artması, 4) təhlillər aparılmasının əhatə dairəsinin genişlənməsi, 5) əməkdaşlıq, 6) yaradıcılıq sferasının böyüməsi, 7) təhsildə motivasiyadan istifadənin artması, 8) nəticə və adekvat qiymətləndirmələrin aparılması, 9) təhsildə fasiləsizlik prinsipinin vacib birincə çevrilməsi, 10) Təlim və tərbiyə arasında məhsuldar əlaqənin artması, 11) Tədrisin fərdi təşkili, 12) Tədrisin demokratikləşdirilməsi, 13) Təhsilin şaxələndirilməsi, 14) tədrisin inteqrativləşməsi, 15) Fəal tədris üsullarına keçməsi, 16) Təhsilin məzmununun standartlaşdırılması, 17) Təhsil sisteminin sənayeləşdirilməsi və s. (https://top-rf.ru/places/616-obrazovanie.html)

**Əsas hissə / Main Part**

**Ədəbiyyatların təhlili**

Azərbaycan Respublikasında Təhsilin keyfiyyətinin qiymətləndirilməsi ilə əlaqədar Elm və Təhsil Nazirliyinin müvafiq şöbələrinin, həmçinin Təhsil Institutunun əməkdaşlarının tədiqatları diqqəticəlb edir. Deyilənlərlə yanaşı təhsildə qiymətləndirmə tədqiqatları qismində S.Qarayeva, İ.Abbaslı və b. araşdırmalarını xüsusi olaraq qeyd etmək lazımdır. Lakin Azərbaycan Respublikasının rəqabətqabiliyyətliliyi məsələsi xüsusi tədqiqat mövzusu kimi seçilməmişdir.

**Metodologiya**

Məqalədə sistemli yanaşma, müqayisə, metodoloji ümumiləşdirmə və qruplaşdırma metodlarından istifadə olunmuşdur.

**Təhsil indeksi**

Almaniya, Norveç, Böyük Britaniya təhsil səviyyəsi indeksinə görə dünya ölkələri arasında liderlik edirlər. Təhsilin keyfiyyətinə bu gün lider dövlətlər Çin, Sinqapur, Makao hesab olunur. Məlumatlar 2020-ci il İnsan İnkişafı Məruzəsində (Human Development Report 2020), öz əksini tapmışdır. Məruzə BMT tərəfindən hazırlanmışdır. Təhsil İndeksi (Education Index) kombinə edilmiş göstəricidir. Göstərici dünyanın müxtəlif ölkələrində vətəndaşların təhsil səviyyəsini xarakterizə etməyə imkan yaradır. Əvvəllər təhsil indeksi yaşlı əhalinin savadlılıq səviyyəsini qiymətləndirilməsi əsasında tərtib edilirdi. Bu indeksdə ibtidai, orta, ali təhsil müəssisələrində təhsil alanların sayı nəzərdən keçirildi. İndeks iki istiqamət üzrə hesablanılır:

- Real orta təhsil müddəti, həmin müddət ərzində əhali təhsil alır;
- Gözlənilən təhsil müddəti, həmin müddət ərzində şagird və tələbələr təhsil müəssisələrinə təhsil almaq üçün gedirlər; (https://www.hse.ru/twelve/).

Azərbaycan Respublikası təhsil sisteminin rəqabətqabiliyyətliliyini göstərən reytinq cədvəllərdə dünya dövlətləri arasında lider mövqelərdə olmasa da həyata keçirilən dövlət siyasəti nəticəsində irəliləyişlər müşahidə olunur. Öncə təhsil sisteminin maliyyələşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərə diqqət yetirilməsi zərurəti yaranır.

Azərbaycanda təhsil sisteminin dövlət büdcəsindən maliyyələşdirilməsinə xüsusi diqqət yetirilir. Deyilən fikri aşağıdakı faktlarda sübut edir.

Son illərdə Azərbaycanda təhsilə dövlət büdcəsindən çəkilən xərclər artmaqdadır. Bu göstərici 2018-ci ildə 7,41% olmuş, əvvəlki il ilə müqayisədə artım, 44% olmuşdur. Sözügedən göstəricilərdə sonrakı illərdə də artım müşahidə edilmişdir. 2019-cu ildə 10,50% artım 2,21%, 2021-ci ildə 11,48% artım 0,98% olmuşdur (https://top-rf.ru/places/616-obrazovanie.html). Təhsilin ayrı-ayrı pillələri üzrə mövcud dəyərləndirilmələrin aparılması labüddür.

**Nəticə və müzakirələr**

**Ali təhsil sisteminin rəqabətqabiliyyətinə təsir göstərən amillər**

Milli təhsil sisteminin rəqabətqabiliyyətlilik imkanlarının dəyərləndirilməsindən bəhs edərkən diqqətin öncə ali təhsil sisteminə yönəldilməsi məqsədəuyğun olardı. Qeyd etmək lazımdır ki, milli təhsil sistemində ali təhsil məktəbləri, xüsusilə də universitetlər böyük rol oynayırlar. Bəşər tarixində ali təhsil sisteminin inkişafı bir neçə tarixi mərhələdən keçmişdir. Bu mərhələlərdə ardıcıl olaraq aşağıdakı tarixi modellər bərqərar olmuşdur:

Universitetlərin sxolastik modeli (1000-1700-ci illər); 2) Texniki model (1500-2000-ci illər); Texniki modellər dövründə daha iki model diqqəti cəlb edir. Bu modellər a) Tədqiqat və b) innovasiya modelləridir ki, həmin modellərin XX əsrin 50-ci illərindən tətbiq olunduğu qeyd edilir (Qarinn: 955). Ali təhsil sisteminin dövrün tələblərinə uyğunlaşdırılması zərurəti ali təhsil məktəblərinin tədris müəssisəsi olmaqla yanaşı tədqiqat və innovasiya mərkəzləri rolu oynamasını da zəruri edir. Son on illiklərdə təhsil strategiyası və dövlət siyasəti hər şeydən öncə beynəlxalq rəabətqabiliyyətlilik məntiqinə əsaslanır. Milli, regional beynəlxalq statuslarda, reytinq cədvəllərində öz əksini tapır. Təhsil sisteminin, təhsil müəssisələrinin rəqabətqabiliyyətliliyi bir də onunla əlaqədar aktuallaşır ki, son zamanlar dünyada rəqəmsallaşma, qloballaşma prosesləri getdikcə dərinləşmək üzrədir. Bu isə təhsil sisteminin, təhsil müəssisələrinin yeni çağırışlarla üzləşməsi deməkdir. Qeyd etmək olar ki, bu gün hər bir dövlət, yüksək inkişafa nail olmaq üçün təhsil sisteminin, xüsusi ilə də

universitetlərinin fəaliyyətini daha nizamlı hala gətirmək zərurətinin hiss etməkdədir. Eyni səbəbdən də hər dövlət ölkənin maraqlarına, inkişaf tələblərinə cavab verə bilən, adekvat təhsil sisteminin qurulmasına ehtiyac hiss edir. Müasir dövrdə universitetlərin vəziyyətini 4 "K" ilə xarakterizə edirlər: *kommersiyalaşdırma, kommodifikasiya* (İngiliscə commodity - əmtəə), *rəqabət* (*concuration), təsnifat (klssification*). Lakin universitetlərin, ali təhsil müəssisələrin sosial mahiyyətləri deformasiyaya məruz qalmaqdadır. Dünya çapında təhsil sistemində müəyyən islahatların aparılmasını labüd edir:

Aparılan islahatlar bir sıra müasir tələblər əsasında həyata keçirilməlidir:

- Təhsil müəssisəsi anlayışının məzmunu genişləndirilməli (bura şəxsiyyətin inkişaf etməsi konsepsiyası, fasiləsiz, açıq təhsil anlayışları da daxildir);
- təhsil sistemi bazar iqtisadiyyatı münasibətlərinə cəlb olunmalı, ali məktəblərin maliyyələşdirilməsi sistemi transformasiyaya məruz qalmalıdır;
- informasiya inqilabının təhsil prosesinə təsiri də nəzərə alınmalıdır;
- Təhsil sistemində, o cümlədən ali təhsil sistemində islahatlar həyata keçirilməli;
- XXI əsrin çağırışlarına cavab verən təhsil sistemi modeli qurulmalıdır.

Təbiidir ki, ali məktəblərin rəqabətqabiliyyətliliyinin yüksəlməsinə təsir edən amillər də nəzərə alınmalıdır. Ali məktəblərin rəqabətqabiliyyətliliyinə bir sıra amillər təsir göstərir. Həmin amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

-İstedadlı müəllimlərin və tələbələrin yüksək təmərküzləşməsi səviyyəsi. Bu amil iqtisadi ədəbiyyatlarda C.Salmi, S.Beqes, S.Marqinson və b. tərəfindən qeyd olunmuşdur.

-*İkinci mühüm amil Resursların* əhəmiyyəti amilidir – Bu amilin təsiri məsələsi C.Salmi, A.Teyk, H.Hort tərəfindən öyrənilmişdir;

-*Üçüncü mühüm* amil *səmərəli idarəetmənin təşkili ilə bağlıdır.* Sözügedən amil C.Lombardi, L.Armstronq, F.Altbax, B.Klark, C.Salmi tərəfindən irəli sürülmüşdür.

- Belə bir zəmində qeyd edilməsi yerinə düşərdi ki, *təhsil müəssisəsinin rəqabətqabiliyyətliliyini sürətləndirən amillər* A.Teyk, Hort, Salmi, Klark və b. tərəfindən araşdırılmışdır. Müvafiq olaraq bəzi amillərin bir qədər ətraflı nəzərdən keçirilməsi zərurəti hiss olunur. *Birinci amil kimi* ali təhsil müəssisələrində istedadlı tələbələrin və müəllimlərin mövcudluğu amilidir. Müasir ali təhsil müəssisələrində istedadlı tələbələrin və müəllimlərin universitetlərin tələbə-müəllim heyətinə cəlb edilməsinə xüsusi diqqət yetirirlər. Təhsil müəssisələrində yeni prinsiplər əsas götürülərək, qlobal, lokal və beynəlxalq masştablarda təhsil müəssisənin fəaliyyəti genişləndirilir. Burada diqqəti *Sinqapur təcrübəsi* cəlb edir. Sinqapurda tərəfdaş ölkələrin təhsil müəssisələrinin maliyyələşdirilməsi də həyata keçirilir. Sinqapurda eyni zamanda ölkə və xarici ölkələrin mütəxəssislərinin tədqiqat işlərinə cəlb edilməsinə imkan yaradılır. Bu baxımdan qeyd etmək lazımdır ki, Sinqapur Universiteti dünyanın bir çox qabaqcıl elm və təhsil müəssisələri ilə əməkdaşlıq edir. Təbiidir ki, əməkdaşlıq çərçivəsində istedadlı tələbələrin və təcrübəli müəllimlərin (mütəxəssislərin) institutun yerinə yetirdiyi tədqiqatlar çərçivəsində araşdırmalara cəlb edilməsinə xüsusi diqqət yetirilir.

*Maraqlı təcrübə kimi İspan təşəbbüsü qeyd edilə bilər.* İspaniyada qabaqcıl beynəlxalq nailiyyətlərə həsr olunmuş kampuslar təşkil edilir. Universitetlərin beynəlmiləlləşməsi üçün xarici ölkələrə doktorantlar göndərilir, xarici ölkələrin tələbələri dəvət edilir. Xarici ölkələrdəki tərəfdaşlarla müştərək elmi proqramlar reallaşdırılır və s.

*İkinci mühüm amil* - hər tərəfli təhsil sisteminin formalaşdırılması üçün resursların axtarılıb tapılması və cəlb edilməsi tələbi ilə bağlıdır. Qeyd etmək lazımdır ki, müasir ali təhsil müəssisənin iqtisadi strategiyası qlobal bazarın yeni şəraitini nəzərə almadan həyata keçirilməsi qeyri mümkündür. Əsas məsələlərdən, ali təhsil müəssisəsinin maliyyələşdirilməsi mənbələrinin axtarılması, tapılması ilə bağlıdır. Ali təhsil müəssisələrində maliyyələşdirmənin həyata keçirilməsi üçün maliyyə mənbələri şaxələndirilir *(diversifikasiya*). Maliyyə resursları ilə yanaşı, rəmzi, surət (imic), brend resursları da şaxələndirməyə daxil edilir. Nümunə olaraq Çində Layihə 211, Layihə 985 göstərilə bilər. Milli hökumətlə yanaşı, yerli orqanlarda layihənin maliyyələşdirilməsinə cəlb edilmişdir.

*Üçüncü amil* - Səmərəli idarəetmə və nəzarət amilidir. Qlobal dəyişikliklər dövründə səmərəli

idarəetmənin həyata keçirilməsi üçün idarəetmə işinin bir mərkəzdən idarə olunması ləğv edilməkdədir. Böyük Britaniyada universitetlərin nə zaman yaradılmasından asılı olaraq idarəetmə işinin təşkili də dəyişilir. Yeni, səmərəli idarəetmə prinsipi universitetlərin 1992-ci ildən əvvəl və ya sonra təşkil edilməsi prinsipinə uyğun olaraq tətbiq edilir.

Almaniyada ali məktəblərin maraqları federasiya çərçivəsində Ali məktəb müəllimləri və prezidentlərinin konfransı təmsil edir. 1995-ci ildən Almaniyada təhsil keyfiyyətinə nəzarət sistemi fəaliyyət göstərir. Ümumən, təhsil sisteminin keyfiyyətinə səmərəli nəzarət sisteminin bərqərar olması nəinki ali təhsil sisteminin, bütünlükdə təhsil sisteminin səmərəli fəaliyyət mexanizmlərinin qurulmasına imkanlar yaradır.

Müvafiq olaraq Azərbaycan reallıqlarına nəzarət yetirilməsi də məqsədəuyğun olardı.

*Azərbaycan Respublikasında təhsil sahəsində həyata keçirilən uğurlu siyasət nəticəsində dünya təhsil bazarında və bir sıra nüfuzlu beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyində əhəmiyyətli irəliləyişlər diqqəti cəlb edir. Beynəlxalq və* regional təhsil reytinqləri xarici ölkələrdə təhsil almaq və təhsil sferasında çalışmaq istəyənlər üçün mühüm informasiyaların əldə edilməsinə imkan yaradır. Sözügedən reytinq cədvəlləri hər il ali məktəblərdə tədqiqat işlərinin, tədrisin təşkili səviyyəsi barəsində mövcud vəziyyəti dəyərləndirməyə imkan yaradır. Operativ məlumat və reytinq cədvəlləri təklif edən QS World University Rankings: dünyanın ən yaxşı ali məktəbləri haqqında məlumat təqdim edir. Sözügedən reytinq Britaniya kompaniyası Quacquarelli Symonds tərəfindən tərtib edilir. Şirkət ən nüfuzlu universitetlər barəsində məlumatlar dərc edir. QS digər reytinq cədvəlləri də təqdim edir: sahəvi, regional (Asiya, ərəb), həmçinin işə qəbul, təhsil sistemi reytinqi və s.

Britaniya reytinq agentliyi QS 2021-ci il üçün universitetlərin reytinq cədvəlini tərtib etdi. Reytinq cədvəlinə Avropa və Mərkəzi Avropanın 85 ölkəsinin 400 ali məktəbi daxil edildi. Bölgənin aparıcı universitetləri Rusiya, Türkiyə, Qazaxıstan, Polşa, Ukrayna, Rumıniya, Çexiya, Macarıstan universitetləridir. Bu reytinq cədvəlində Azərbaycanı 7 universitet təmsil edir. Bunlar aşağıdakılardır: Bakı Dövlət Universiteti (211-220-ci yer); Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) (221- 230-cu yer; Khazar University (241-250 yer), ADA. Reytinqdə analoji mövqelərdə (301-350) Azərbaycan İnşaat Mühəndislər Universiteti, Azərbaycan Neft və Sənaye Universiteti, Bakı Mühəndislər Universiteti yerləşir. Bu il reytinq 10 göstərici üzrə tərtib edilmişdir, o cümlədən elmi göstəricilər, Ali məktəbin iş təklif edənlər arasında nüfuz göstəricisi də daxil edilmişdir

(https://www.yeniazerbaycan.com/Sosial_e36957_az.htmlhttps://www.yeniazerbaycan.com/Sosial_e36957_az.html ) .

2022-ci il reytinq cədvəli diqqəti cəlb edir. Bu cədvəl ən uzun reytinq cədvəli kimi tarixə daxil olmuşdur: Cədvəl 1300 ali məktəbin reytinq məlumatlarını özündə əks etdirir. Birinci 100 universitet arasında Böyük Britaniya, ABŞ, Yaponiya, Cənubi Koreya, Avstraliya, Çin universitetləri liderlik edirlər. 100 universitet içərisində MDB məkanından M.V.Lomonosov adına Moskva Dövlət Universiteti (78-ci yer) daxil olmuşdur.

QS metodologiyasına görə ali məktəblər 6 göstərici üzrə qiymətləndirilir (https://www.macrotrends.net/countries/AZE/azerbaijan/education-spending):

- ✓ Akademik nüfuz;
- ✓ İş təklif edənlərin qiymətləndirilməsi;
- ✓ Müəllim tələbə münasibətləri;
- ✓ İqtibas indeksi;
- ✓ Xarici ölkə müəllimlərinin sayı;
- ✓ Xarici tələbələrin sayı.

Dünya universitetlərinin növbəti RUR beynəlxalq reytinqi (RUR Reputation Rankings) cədvəlləri diqqəti cəlb edir. Reytinqdə dünyanın 80 ölkəsindən 930 ali təhsil müəssisəsi yer alıb. Reytinqdə ön sıralarda dünyada ən çox tanınan - Harvard Universiteti, Massaçusets Texnologiya İnstitutu və Stanford Universiteti, Böyük Britaniyanın Kembric Universiteti, Kaliforniya Berkli və Oksford universitetləri yer almışlar. Asiyanın aparıcı universiteti Tokio Universiteti 14-cü yerdə, Sinqapur Milli Universiteti 19-cu yerdə qərarlaşmışdır. Clarivate Analytics şirkətinin elmi məlumatları əsasında tərtib olunan beynəlxalq RUR reytinqində universitetlər 20 parametr üzrə qiymətləndirilir. Bu ilki reytinqdə Azərbaycanın 3 ali təhsil müəssisəsi - Bakı Dövlət

Universiteti (BDU), Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU), Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) yer almışdır. BDU 26.872 balla 621-ci, AzMİU 10.945 balla 725-ci, UNEC 6332 balla 786-cı yerdədir (https://tehsil.biz/news/ru/3528/).

Diqqəti yaxın zamanlarda açıqlanmış Dünya İqtisadi Forumunun qiymətləndirilməsi cəlb edir. Qiymətləndirmələrdə "Ali təhsil və təlim" indeksi üzrə Azərbaycan Respublikasının mövqeyi son 4 ildə 22 pillə yaxşılaşmış və respublikamız 90-cı yerdən 68-ci yerə qədər yüksəlmişdir. Bir sira alt göstəricilər üzrə təhsil sahəsinin nailiyyətləri diqqəti cəlb edir. Bunlar aşağıdakılardır:

- "Təhsil sisteminin keyfiyyəti" göstəricisi (104-cü yerdən 35-ci yerə);
- "İdarəetmə məktəblərinin keyfiyyəti" göstəricisi (124-cü yerdən 72-ci yerə);
- "Riyaziyyat və elmi təhsilin keyfiyyəti" göstəricisi (108-ci yerdən 66-cı yerə);
- "Kadr hazırlığı dərəcəsi" göstəricisi (94-cü yerdən 51-ci yerə);

"Yerli ixtisaslaşmış təlim xidmətləri"; (79-cu yerdən 44-cü yerə); "Məktəblərdə internetə çıxış" göstəricisi (69-cu yerdən 41-ci yerə) yüksəlmişdir.

(https://az.sputniknews.ru/20221105/azerbaydzhan-vskore-poyavitsya-v-mirovykh-reytingakh-v-sfere-obrazovaniya---emin-amrullaev-448283787.htm).

**Orta təhsilin milli təhsil sistemində yeri**

Məlumdur ki, təhsil dövlət siyasətinin strateji cəhətdən mühüm istiqamətlərindən biridir. Orta təhsil ibtidai və ali təhsil arasında yerləşən aralıq təhsil mərhələsidir. Müasir dövrdə orta təhsilin keyfiyyətinin qiymətləndirilməsi üçün müxtəlif reytinq cədvəlləri tərtib olunur. Belə bir zəmində qeyd etmək lazımdır ki, son illər ərzində Azərbaycan bir sıra beynəlxalq proqramlarda PIRLS, TIMSS, PISA və s. kimi beynəlxalq proqramlarda iştirak edir (https://allterra.ru/articles/189576/).

Azərbaycanda qiymətləndirmə tədqiqatları Azərbaycan Respublikasının Təhsil İnstitutunun struktur vahidi "Milli və beynəlxalq qiymətləndirmə şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilir. Azərbaycanda keçirilən beynəlxalq tədqiqatlardan **PİSA** (Proqramma for İnternational Student Assesment) Beynəlxalq Şagird Qiymətləndirmə Proqramıdır. Bu proqram İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilati (Organisation for Co-operationa and Devolpment ) tərəfindən 3 ildən bir təşkil edilir. 15 yaşlı şagirdlərin riyaziyyat, oxu və digər biliklərin həyatda qarşılaşdıqları problemləri həll etmə bacarıqlarına təsiri məsələsi araşdırılır. Azərbaycan 2006, 2009, 2018-ci illərdə PİSA tədqiqatlarında iştirak etmişdir. Qeyd etmək lazımdır ki, sonuncu PİSA göstəricilərinə əsasən şagirdlərin riyaziyyat üzrə orta balı 420, oxu üzrə 389, təbiət elmləri üzrə 389 olmuşdur.

**PİRLS** (Proqress in İnternational Literacy Study) Oxu nailiyyətlərinin qiymətləndirilməsi üzrə Beynəlxalq Tədqiqat IV sinif şagirdləri arasında keçirilir. Azərbaycan 2011, 2016, 2021-ci illərdə PRLS tədqiqatlarında iştirak edib.

TİMSS (Trends in İnternational Mathematics and Science Sudy) Beynəlxalq qiymətləndirmə Proqramıdır. - Beynəlxalq qiymətləndirmə tədqiqatları 4 ildən bir IV və VIII sinif şagirdləri arasında keçirilir. 2011 və 2019-cu illərdə Azərbaycan yalnız IV sinif şagirdləri ilə təmsil olunub. 2019-cu ildə 2011-ci il ilə müqayisədə riyaziyyat elmi üzrə irəliləmə, təbiət elmləri üzrə geriləmə müşahidə edilmişdir. Növbəti qiymətləndirmənin 2023-cü ildə keçiriləcəyi gözlənilir. Azərbaycan həmin tədqiqatlarda həm IV, həm də VIII sinif şagirdləri ilə iştirak edəcəkdir.

**İCLİS** (İnternational Computer and İnformation Literacy Study)-Kompüter və İnformasiya Savadlılığı üzrə Beynəlxalq Tədqiqat VIII sinif şagirdləri arasında aparılır. Şagirdlərin kompüter və informasiya texnologiyaları sahəsində bilik və bacarıqlarını qiymətləndirir. Azərbaycanın İCLİS tədqiqatlarında iştirakı bu il 2023-cü il üçün nəzərdə tutulmuşdur (Abbaslı İ (2019).

*Şagird nailiyyətlərinin qiymətləndirilməsi istiqamətində həyata keçirilən beynəlxalq qiymətləndirmə tədqiqatlarının təhsil sistemi haqqında verdikləri məlumatlar məhdud xarakter daşıyır. Müvafiq olaraq orta məktəb müəllimləri arasında tədqiqatların keçirilməsi zərurəti yaranır. Bu cür tədqiqatlardan biri kimi **TALİS** proqramı göstərilə bilər. TALIS (Teaching and Learning International Survey) - Təlim və Tədris üzrə Beynəlxalq Araşdırmalar proqramı müəllimlərin və məktəb rəhbərlərinin təhsil ilə əlaqədar yanaşmalarını araşdırır.*

*2008-ci ildən başlayaraq 5 ildən bir keçirilən TALIS tədqiqatı aşağıdakı istiqamətlər üzrə qiymətləndirmə aparılır:*

- ✓ Müəllimlərin tədris təcrübələri
- ✓ Müəllimlərin peşəkar təcrübələri
- ✓ İdarəetmə bacarığı
- ✓ Müəllim hazırlığı
- ✓ Müəllimlərin peşəkar inkişafı
- ✓ Məktəb mühiti
- ✓ İş məmnuniyyəti
- ✓ İnsan resursları ilə əlaqədar məsələlər
- ✓ Bacarıqlara dair əminlik

Azərbaycan Respublikasının müəllimlərinin TALIS 2024 tədqiqatında ilk dəfə iştirak edəcəyi gözlənilir.

Göründüyü kimi, Azərbaycan Respublikasında nəinki ali təhsil müəssisələri, eyni zamanda orta təhsil müəssisələri üzrə beynəlxalq standartlara uyğun qiymətləndirmələrə başlanılmışdır.

**Müasir dövrdə milli təhsil sisteminin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi ilə əlaqədar təkliflər:**

Qloballaşmanın dərinləşməsi ilə təhsil xidmətləri sferasında əməkdaşlıq da genişlənir. Təhsil xidmətlərinin idxal və ixracı xarici iqtisadi əlaqələrdə mühüm yerlərdən birini tutur. Təhsil xidmətləri bazarı sürətlə inkişaf etməkdədir. Təhsil xidmətləri bazarında aparıcı yerlər ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, Avstraliya, Çin, Yaponiya, Rusiya, Kanada kimi dövlətlərə məxsusdur.

Ölkənin beynəlxalq təhsil bazarına daxil olması üçün bir sıra şərtlərin yerinə yetirilməsi tələb olunur, çünki Azərbaycan Respublikasında təhsil sisteminin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi məhz təhsil xidmətləri bazarının beynəlmiləlləşməsindən bilavasitə asılıdır. Bu səbəbdən də aşağıdakı şərtlərin yerinə yetirilməsinə diqqət etmək zərurəti hiss olunur:

- ➢ ölkədə təhsilin keyfiyyətinin beynəlxalq standartlara çatdırılması;
- ➢ regional təhsil ittifaqlarının, virtual universitetlərinin yaradılması;
- ➢ təhsil formalarının inkişaf etdirilməsi, onlayn, distansiyalı (məsafəli) texnologiyaların tətbiqi;
- ➢ təhsil xidmətlərinin satışında innovasiyalı yanaşmaların tətbiqi;
- ➢ milli təhsil bazarına daxil olmaq üçün xarici koordinatorlara kömək göstərilməsi;
- ➢ ali təhsil almaq imkanlarının genişləndirilməsi;
- ➢ xarici tələbələr üçün xüsusi proqramların hazırlanması;
- ➢ milli təhsil sistemində innovasiya imkanlarının fəallaşdırılması və dəstəklənməsi;

Təbiidir ki, bunlar yeni reallıqlar nəzərə alınmadan qeyri mümkündür.

Dövrün reallıqları tələb edir ki, erkən yaşlarından başlayaraq uşaqların intellektual inkişafına xüsusi diqqət yetirilməsi tələb olunur (https://www.hse.ru/twelve/).

Mütəxəssislər təklif edirlər ki, 3 yaşına qədər olan uşaqlar, eyni zamanda fiziki imkanları məhdud olan uşaqlar üçün xüsusi kömək proqramları hazırlanmalıdır. Həmin proqramlar ödənişsiz, pedaqoqlar, psixoloqlar tərəfindən yerinə yetiriməlidir. Belə bir dəstəyin məktəb proqramının mənimsənilməsinin yüksəldilməsinə xidmət edər.

- *Rəqəmsal məktəb əsri*

Rəqəmsal texnologiyalar hər şagird üçün təhsil trayektoriyasını seçmək, qiymətləndirmədə obyektivliyi yüksəltmək, müəllimin yükünü azaltmaq imkanı verir. Bunun üçün isə müasir rəqəmsal tədris-metodiki vasitələr tərtib edilərək istifadə edilməli, tədris prosesinə oyun və stimulyatorların daxil edilməsi XXI əsr vərdişlərinə uşaqların yiyələnməsinə imkan yaradar.

Məktəblərin maddi təminatının, infrastrukturunun dövrün tələblərinə uyğun inkişaf etdirilməsi (məktəblərin internetə qoşulmasının təmin edilməsi məktəblərdə rəqəmsal mühitin yaradılmasını asanlaşdırar.

Hər şagird üçün imkanların yaradılması, hər 6-7 yaşlı şagirdin məktəbə hazırlıq imkanının əldə edilməsinin təmin edilməsi.

Yaşayış səviyyəsi minimum həddən aşağı olan tələbələr üçün sosial təqaüdlərin verilməsi.

Yeni texnoloji təhsil;

İstedadların dəstəklənilməsi;

Təhsilin fasiləsizliyinin təmin edilməsi;

Ali məktəblər innovasiya mərkəzləri kimi formalaşdırılmalı;

Fundamental elmin inkişaf etdirilməsi;

Təhsil xidmətlərinin ixrac imkanlarının genişləndirilməsi və s. (https://www.hse.ru/twelve/).

**Nəticə**

Rəqabətqabiliyyətlilik anlayışı iqtisadiyyat sferasından təhsil sferasına daxil olmuşdur. Qlobal masştablarda rəqabətqabiliyyətlilik milli təhsil sisteminin qlobal bazarlarda rəqabət apara bilmək qabiliyyətini nəzərdə tutur. Son illiklərdə təhsil sferasında məhz qlobal masştablarda rəqabət mübarizəsi xeyli yüksəlmişdir. Liderlik əsasən qərb dövlətrlərinə və Asiyanın Çin, Yaponiya Sinqapur kimi ölkələrinə məxsusdur. Azərbaycan Respublikasında milli təhsil sferasının reytinq cədvəllərindəki göstəricilərində müəyyən irəliləyişlər hiss olunur, lakin əsil hədəf kimi daha yüksək səviyyələrə yüksəlməsi nəzərdə tutulur. Dövrün çağrışları ilə səsləşən təkliflər irəli sürülmüşdür.

**İstifadə edilmiş ədəbiyyat / *References***

1. Abbaslı İ (2019), (ARTİ-nin Milli və beynəlxalq qiymətləndirmə tədqiqatları şöbəsinin mütəxəssisi) https://www.muallim.edu.az/news.php?id=17699

2. Qarinin M.T, Transsformatsiya universiteta v sentr vnedreniya innovatsii// Voprosı innovatsionnoy ekonomik №3. URL: https://cyberleninka.ru/article/n/transformatsiya-universiteta-v-tsentr-prostranstva-vnedreniya-innovatsiy ,s. 955

3 https://www.muallim.edu.az/news.php?id=12657&lang=#prettyPhoto[pp_gal]/0

4 https://tehsil.biz/news/ru/3528/

5 https://www.yeniazerbaycan.com/Sosial_e36957_az.htmlhttps://www.yeniazerbaycan.com/Sosial_e36957_az.html

6 https://az.sputniknews.ru/20221105/azerbaydzhan-vskore-poyavitsya-v-mirovykh-reytingakh-v-sfere-obrazovaniya---emin-amrullaev-448283787.htm

7 https://allterra.ru/articles/189576/

8 https://www.macrotrends.net/countries/AZE/azerbaijan/education-spending

9 https://spravochnick.ru/pedagogika/obschie_tendencii_v_razvitii_sistemy_obrazovaniya_v_sovremennom_mire/

10 https://top-rf.ru/places/616-obrazovanie.html

11 https://www.hse.ru/twelve/

## Оценки конкурентоспособности национальной системы образования в Азербайджанской Республике

**Жале Мирзабекова**
Старший научный сотрудник,
Институт Экономики НАНА. Азербайджан.
E-mail: jale.2003@mail.ru

**Резюме:** В статье рассмотрены факторы, определяющие современные изменения в системе образования, причины, вызывающие необходимость новых качественных изменений и тенденции, ставящие вопрос о повышении качества систем образования. В статье также рассмотрен, опыт ведущих государств в сфере образования и прогресс в рейтинговых таблицах по показателям конкурентоспособности национальной системы образования в Азербайджанской Республике.

**Ключевые слова:** национальная система образования, высшее образование, конкурентоспособность, индекс образования, рейтинг.